# Adət və ənənələr alim və filosofların gözü ilə

Bir çox elmi ədəbiyyatlardan məlumdur ki, adət və ənənələrin təkamülü insan cəmiyyətinin üst poleolit dövründən başlamış, həyat tərzi, sosial qurumlar dəyişdikcə onlar da inkişaf etmiş, modernləşərək zənginləşmişlər. Ən maraqlısı odur ki, adət və ənənələr, o cümlədən bayram və mərasimlər insan həyatının sosial-mənəvi tərəflərini özündə cəmləmiş, mühafizə edərək əsrlərdən-əsrlərə, nəsildən-nəslə ötürə bilmişlər. Xüsusilə, bir çox sosial-mədəni vərdişlərlə yanaşı, ədəbiyyatın, musiqinin, teatrın, müxtəlif folklor nümunələrinin xəzinəsinə çevrilmişlər. Elə buna görə də, bəşər tarixinin müxtəlif dövrlərində adət və ənənələr dünya alimlərinin diqqətini özünə cəlb etmişlər.

Hələ qədim dövrün və orta əsrlərin görkəmli filosofları Platon, Aristotel, Demòkrit, Epikur, Lametri, Didro, Helvitsi və başqaları öz əsərlərində adət və ənənələr haqqında maraqlı fikirlər söyləmişlər. Məsələn, qədim yunan filosofu Platon bayramları dövləti sabit saxlaya bilən bir alət kimi təsvir etmiş, tərbiyə prosesində buraxılan qüsurları bayramlar, adət və ənənələr vasitəsilə düzəltməyin mümkünlüyünü söyləmişdir. Aristotel isə insanların bayram etmək haqqı olduğunu deyir və bu haqqı onların əlindən almağın qeyri-mümkün olduğunu göstərirdi.

Alimlərin apardıqları tədqiqatlara görə, hələ ibtidai icma quruluşunda ictimai şüurun bütün formaları ilkin olaraq adət və ənənə şəklində özünü büruzə verirdi. Adət və ənənələr bütövlükdə ictimai şüurun bütün funksiyalarını özündə cəmləşdirirdi. Xüsusilə, dini və bədii şüurun əsasını qoyur və onu əbədi olaraq mühafizə edib yaşadırdı. Bu da ondan irəli gəlirdi ki, adət və ənənələr çox zaman dəyişməz qanun funksiyasını yerinə yetirir, insanların fəaliyyətlərini tənzimləyirdilər. Bununla əlaqədar olaraq qədim dövr tədqiqatçılarından biri olan L.Morqan yazırdı: "Qəbilə qaydaları, qanun gücünə malik adətlər idi".

Ən maraqlısı odur ki, dünya xalqlarının bir çox milli adət və ənənələrinin ilk təşəkkülü də qədim dövrlərdən başlamış, bu adət və ənənələrə bağlılıqdan irəli gələrək, ictimai şüurun bütün sahələrində varislik prinsipi əsasında dəyişməz olaraq qalmışlar. Qədim dövrdə insanların asudə vaxt çoxluğu onların yaradıcılıq imkanlarını, əylənmək, oynamaq və s. kimi mənəvi tələbatlarla məşğul olmaq vərdişlərini artırırdı.

İbtidai mədəniyyətin tədqiqatçılarından biri olan Lipis də qədim insanların asudə vaxtlarının çox olduğunu və onların müxtəlif vərdişlərə yiyələnmək imkanlarının genişliyini qeyd etmişdir.

Çox zaman bu boşluqlar incəsənət əhəmiyyətli dini mərasimlərlə doldurulmuşdur. Din və incəsənətin vəhdəti ayin və mərasimləri emosionallaşdırmışdır. Ayin və mərasimlərdə ictimai şüurun dinlə bağlı olan tərəflərinə daha çox üstünlük verilmişdir. Dini şüur, adət və ənənələrin əsas aparıcı xəttini təşkil etsə də, bədii təfəkkürlə qovuşmuş, cəm halında incəsənətlə əlaqəli şəkildə təşəkkül tapmışdır. Dini şüur, ilkin mərhələdə incəsənətə üstün gələrək onu uzun əsrlər boyu özündən asılı vəziyyətdə saxlamışdır. Bu da dini mahiyyət daşıyan adət və ənənələrdə mühafizəkarlığın, eyni zamanda varislik prinsipinin üstünlük təşkil etməsindən, dinin bir ideologiya kimi ictimai şüurun başqa formaları üzərində güclü təsirə malik olmasından irəli gəlmişdir. Dini adət və ənənələr kainat və tanrı duyğusu ilə cəmiyyətdə dərin kök atmışdır. Dini adət və ənənələrin qanun halına düşdüyünü və kütləvi olduğunu nəzərə alan alman sənətşünası Herbert Kün yazmışdır ki, "qanun kosmikdir, müasir sənətkar da yaradır, daş dövrünün sənətkarı da. Onların hər ikisinin qəlbində eyni arzular, eyni hisslər - kainat və tanrı duyğusu özünə yer tapmışdır". İngilis estetiki Andre Bredli incəsənətin tarixən dindən asılı vəziyyətdə inkişaf etdiyini söyləmişdir. Amerika sənətşünası Feybleman isə incəsənəti «dini hisslərin və əhval-ruhiyyənin ifadə vasitəsi adlandırmışdır". Rus alimləri L.Pajitnov və B.Şragin isə, estetik ideal problemini məhz individin və cəmiyyətin tam harmoniya problemi kimi qiymətləndirmişlər. Başqa bir rus alimi L.Solovyov isə yazır ki, müasir dövrdə xüsusi əzm və ardıcıllıqla bütün tarixi hadisələri, ideologiyanın bütün ictimai təsisatlarını və formalarını müasir dövrün əxlaq normaları üçün son dərəcə vacib hesab etmək olar.

Lakin bu alimlərin demək olar ki, əksəriyyəti dinlə incəsənəti bir-birinə bağlayan cəmiyyətdə qanuni hal almış və hamını öz tələblərinə tabe etmək, itaətdə saxlamaq gücü olan adət və ənənələri, mərasim və bayramları qismən də olsa, arxa plana atmışlar. Əslində isə dinlə incəsənət adət və ənənələrin tələblərinə uyğun şəkildə bir-biri ilə qovuşmuşlar. Bu fikri qismən də olsa, alman sənətşünası Herbert Kün də təsdiq etmişdir. O, demişdir: "Təsviri sənət həmişə ayinlə bağlı olmuşdur. Təkcə buz dövründə yox, sonralar, mezolit, neolit, bürünc dövrün-

də, nəhayət orta əsrlərdə, elə bu günün özünə qədər də bu belədir".

Əslində dünyanın bir çox yerlərindəki qədim qaya təsvirləri, xüsusilə, onların üst poleolit dövründə yaranmaları "ovsun" nəzəriyyəsi" anlayışı baxımından qayalara, mağara divarlarına həkk edilmişlər. Çox ehtimal ki, ovçuluq mərasimləri fövqəltəbiiləşdirilməsəydi, qədim daş dövrünün təsviri incəsənəti də yaranmazdı. Çünki elmi araşdırmalar sübut edir ki, ibtidai insanın hər bir hərəkəti təkamülün ilkin mərhələsində fövqəltəbiiləşdirilmiş, bəhrələnmək prinsipinə əsaslanmışdır. Məsələn, qədim daş dövrünün adamı onun gündəlik qida vasitəsi olan heyvanların şəkillərini mağara divarlarına, yaxud qaya üzərinə çəkib, həmin şəkillər önündə sehrbazlıq mərasimləri təşkil etmişdir. O, dini ayin və mərasimi ilə ovlanacaq heyvanın artıq ovsunlandığını zənn edir, gələcək uğuru üçün özündə inam və əzmkarlıq hissi yaradırdı. Təbii ki, bu proses gündəlik həyat tərzinə çevrilir, ənənəvi hal alırdı. Ənənəvilik isə yaranmış vərdişi irs kimi nəsildən-nəslə ötürürdü. Onların içərisində dini ayin və mərasimlər çoxluq təşkil edirdi. Ayin və mərasimlərin mahiyyətindən irəli gələrək insanlar həm də bədii yaradıcılıq prosesinə qoşulurdular. İncəsənətin mahiyyətini anlamasalar da mərasimlər, adət və vərdişlər onun ilkin nümunələrini yaratmağa insanları təhrik edirdi. Şəkil çəkib onun ətrafında ovsunçuluq mərasimi qurmaq da adət və ənənənin tərkib hissəsi olmuşdur.

Ümumiyyətlə, adət anlayışına tarixin müxtəlif mərhələlərində "adamlar arasında sabitləşmiş, nəsildən-nəslə keçən və ictimai rəy gücünə qorunub saxlanan davranış qaydaları, vərdişlər nəticəsində həyata keçirilən hərəkətlər daxildir". Onlar tarixi inkişaf nəticəsində dəfələrlə təkrarlanaraq ənənəyə çevrilirlər. Ənənə isə latın sözü olub, "traditio" - yəni tarixən yaranan və nəsildən-nəslə ötürülən mənasında anlaşılır. Ayin isə latınca (ritualis) mərasim mənasını verir və müxtəlif mərasimlərin, xüsusilə, dini ibadətlərin təntənəli anlarıdır. Mərasim müəyyən hərəkətlər kompleksinin mahiyyətini əks etdirirsə, ayin onların keçirilməsi, icrası qaydası haqqında təsəvvürlər yaradır, mərasimin quruluşunu müəyyənləşdirir.

İbtidai dövrdə yaşayan qədim insanların sehrbazlıq, ovçuluq məqsədi ilə çəkdikləri şəkillər və həmin şəkillərin ətrafında icra olunan təntənəli dini anlar da mərasimin tərkib hissəsi olmuşdur. Məhz dini ayin və mərasimin qoyduğu qayda və qanunlara uyğun olaraq təsviri incəsənət, musiqi və söz sənəti hələ üst poleolit dövründən təşəkkül tapmağa başlamışdır.

Sovet quruluşunun ateist məkanında incəsənətin dinlə bağlılığı inkar edilirdi. Ç.Darvinin «Təkamül nəzəriyyəsi»nə əsaslanan materialist alimlər ictimai şüurun bədii tərəfinin dindən asılı olmadan inkişaf etdiyini deyirdilər. İctimai şüurun formalaşmasını, incəsənətin meydana gəlməsini birmənalı şəkildə əmək fəaliyyəti prosesi ilə əlaqələndirirdilər. Bu fikirlə razılaşan Azərbaycan estetiki və sənətşünası Mehdi Məmmədov yazırdı: "Əmək insanın təkcə əlini, bədənini, cismini deyil, ruhunu da dəyişdirir, onu tədriclə heyvanat aləmindən fərqləndirən bir hisslə - gözəllik hissi, estetik duyğu ilə zənginləşdirir".

Sözsüz ki, insanın ictimai varlıq kimi formalaşmasında əməyin rolu böyükdür. Lakin gözəllik hissi, estetik duyum üçün təkcə əmək fəaliyyəti kifayət etməmişdir. Bədii təfəkkürün inkişaf etməsi üçün ruhi bir mühitin mövcudluğu tələb olunmuşdur. Belə bir mühiti insanlar adət, ənənə, mərasim, bayram şəklində yaratmışlar. Həmin mühit zaman-zaman bədii-estetik duyumun təkamülünə xidmət etmişdir. Adət və ənənələr varislik prinsipinə sadiq qalaraq ictimai şüurun bütün nümunələrini, o cümlədən, dini, bədii təxəyyülün məhsulunu qoruyub, inkişaf etdirib, nəsildən-nəslə, qərinələrdən-qərinələrə ötürə bilmişdir.

Təbiidir ki, ictimai şüur forması kimi incəsənətin təsir dairəsi, təkamülün nəticəsi olaraq, adət və ənənə məkanından kənara çıxa bilmiş, müstəqil sahələrə bölünmüşdür. Ancaq mahiyyət etibarı ilə adət və ənənələrdən kənarda qala bilməmişdir. Bütün dövrlərdə incəsənət bu və ya digər formada adət və ənənələrə, mərasim və bayramlara xidmət etmişdir.

Lakin tarixi inkişaf baxımından incəsənətin meydana gəlmə səbəblərini, onun adət və ənənələrlə hansı formada bağlılığını birmənalı şəkildə söyləmək çətindir. Yəni incəsənəti dini anlayışın nəticəsi, yaxud sırf əmək fəaliyyətinin məhsulu kimi qiymətləndirmək münasibətimizi obyektivlikdən uzaqlaşdıra bilər. Elə buna görə də, alimlərin tarixən apardıqları tədqiqatların özündə də konkretlik yoxdur və onların eyni problem ətrafındakı fikirlərində dərin ziddiyyətlər vardır. Məsələn, G.V.Plexanov deyirdi ki, "İbtidai dövr incəsənətinin tarixini düzgün anlamaq üçün əməyin incəsənətdən yaşlı olduğunu, ümumiyyətlə, insanların predmetlərə, hadisələrə əvvəlcə utilitar gözlə baxdığını və yalnız sonra onlara öz münasibətində estetik baxımdan yanaşdığını dərindən dərk etməliyik". Lakin G.V.Plexanov elə həmin əsərində incəsənətin bu və ya digər formalarının əmək prosesində yarandığını deyir. Onun fikrincə, rəqs və mahnı ibtidai insanın əmək prosesində yaranır və onu müşayiət edir. G.V.Plexanov yazır: "İbtidai xalqlarda həmişə iş vaxtı bir hava oxunur. Melodiya burada ikinci dərəcəli bir şeydir, mətn də həmçinin. Ən başlıcası ritmdir. Mahnının ritmi eynilə işin ritmini təkrar edir. Musiqi də öz mənbəyi etibarı ilə əməyə borcludur".

Buradan belə nəticə çıxır ki, əmək fəaliyyəti ilə bərabər ona uyğun gələn incəsənət növü də yaranır. Doğrudan da insan əmək fəaliyyəti prosesində gördüyü işin xarakterinə uyğun olaraq mahnı oxuya bilər. Əgər söhbət ibtidai ovçuların əmək fəaliyyətindən gedirsə, günlərlə pusquda dayanıb ov gözləyən ovçunun mahnı oxuması və ya rəqs etməsi ağlabatan deyil. Ovçunu ritmik hərəkətlər etməyə, ovsun mahnıları oxumağa vadar edən ilkin istək, onun fövqəltəbii inamından irəli gəlir. Fövqəltəbii inam əmək prosesində bəhrələnmək marağından yaransa da, xüsusi halda, ənənə və mərasim şəklində icra olunmuşdur.



İspaniyanın Altamira mağarasında, Fransanın Mon de Qom mağarasında, Qobustan qayalarında və s. yerlərdə aşkar olunmuş qədim təsvirlər və dünyanın başqa yerlərindəki ibtidai rəsmlər üzərində aparılan tədqiqatlar sübut edir ki, ac qalmaq qorxusu insanları fövqəltəbii düşünməyə və hərəkətlər etməyə məcbur etmişdir. Həyat uğrunda mübarizə onların fəaliyyətini istiqamətləndirmiş, dini inanclarla zənginləşdirmişdir. İnsanlar özlərinin hiss və duyğularını bəhrələnmək istədikləri hadisəyə və predmetə ilahi ümidlə yönəltmişlər. Bunun da nəticəsində təkrarlanan vərdişlər, fövqəltəbii məqsədə xidmət edən hərəkətlər ənənəvi hal almışdır. Ənənəvi xarakter daşıyan fəaliyyət prosesi isə öz növbəsində adət və mərasimlərin, bayram təntənələrinin yaranmasına səbəb olmuşdur.

Təbii ki, adət və ənənələr ictimai formasiyaların xarakterinə uyğun olaraq modernləşmişlər. Lakin ailə və məişətlə, təbiətlə, hissi aləmlə, peşə vərdişləri ilə bağlı olan adət və ənənələrdə mühafizəkarlıq bütün quruluşlarda üstünlük təşkil etmiş, onlar formaca müəyyən dəyişikliklərə uğrasalar da, mahiyyətcə varislikdən imtina etməmiş, ilkin məzmunu qoruyub saxlaya bilmişlər. Bu cəhət adət və ənənələrin bədii-emosional elementlərinin unudulmamasında, nəsildən-nəslə ötürülməsində özünü büruzə verir.

Sovet kommunist ideologiyası və ona xidmət edən elmi mənbələr adət və ənənələrdə varisliyin mövcudluğunu, köhnənin yeni ilə əvəz olunmasının labüdlüyünü iddia edirdi. Məsələn, O.Abdullayev "Sosial fəallıq və yeni adət-ənənələr" adlı kitabında yazırdı: "Hər bir yeni ictimai quruluş, keçmiş ənənələrdən özünə lazım olanlarını götürmək, onları "özününküləşdirmək" şərti ilə keçmiş cəmiyyətlərin adət-ənənələrindən təmizlənir, öz adət-ənənələrini yaradır və inkişaf etdirir. Bunlar yeni adətlər və ənənələrdir".

Çox maraqlıdır ki, bədii-estetik duyum hissi olduğundan adət və ənənələr, mərasim və bayramlar tərkibində dərin yer tutmuşdur. Onların bütün emosional tərəfləri bədii-estetik dəyərlərlə zənginləşmiş, zərif sənət formasına düşmüşlər. İncəsənətin bir çox növləri və janrları da tarixi-milli adət və ənənələr çərçivəsində yaranmış, təkamül etmişlər. Təbii ki, ayrı-ayrı sənət növlərinin formalaşmasında dini anlayışlar da az rol oynamamışlar. Elə buna görə də dünyanın bir çox alimləri dramaturgiyanın və teatrın, təsviri incəsənətin, musiqinin mənşəyini dinlə əlaqələndirirlər. Antik dövrdə və sonralar yaranmış dram əsərlərinin dini mövzulara həsr olunması, şərab allahı Dionisin, yaşıllıq allahı Demetranın şərəfinə təşkil olunan bayram tamaşaları, Azərbaycan xalqına məxsus olan "şəbeh", "qaravəlli" tamaşaları, orta əsrlərdəki "misteriyalar", "mirakl" tamaşaları və başqa nümunələr yuxarıdakı fikri söyləməyə əsas verir. Antik dövrün görkəmli filosofu Aristotel «Poetika» əsərində dramaturgiyanın və teatrın inkişafında dini bayram və mərasimlərin rolunu yüksək qiymətləndirmişdir.

K.Q.Hermes də dini şüurun bəşəriyyətin inkişafına təsirini xüsusi olaraq qeyd etmişdir. K.Q.Hermes yazmışdır: "Yüksək tarixi əhəmiyyət kəsb edən millətlər üçün xalq həyatının çiçəklənmə dövrü onların dini şüurunun ən yüksək inkişafı ilə bir dövrə, onların ehtimalının, qüdrətinin süqutu isə onların dini həyatının süqutu ilə bir araya düşür". Lakin K.Q.Hermesin bu fikrində müəyyən ziddiyyətlər vardır. Birincisi, din heç vaxt süqut etməmişdir. Sadəcə olaraq dini anlayışların forması dəyişmişdir. Qədim tayfa dinlərinin əsasında milli dünya dinləri meydana gəlmişlər. Yeni dinlərin hamısında ibtidai dinlərə məxsus olan animistik anlayışlar xüsusi yer tuturlar. Bütün dövrlərin dini ayin və mərasimlərinin də əsas məzmununu animistik anlayışlar təşkil edir. Deməli, animistik anlayışlar da adət,ənənə və mərasimlərin mühafizəkar mühitində qorunmuş, bu və ya digər formada bədii-estetik duyuma və onun yaratdıqlarına da təsir etmişlər. Eyni zamanda animistik anlayışların təsiri nəticəsində fövqəltəbii xarakterə malik olan bir sıra mənəvi dəyərlər və vərdişlər meydana gəlmişlər. Şaman mahnılarını, rəqslərini, bütpərəstlərin müqəddəs ruhla birləşmək mərasimlərini dini anlayışla yanaşı, həm də bədii-estetik təfəkkürün məhsulu hesab etmək olar. Çünki bu dini mahnılarda səsin ahənginə, hərəkətin plastikliyinə, hadisələrin dramatikliyinə xüsusi diqqət yetirilmişdir. Dini-hissi obrazla bərabər estetik duyum, reallığın bədii fantastik obraz şəklində təcəssümləndirilməsi konkret mənəvi təsir dairəsi yaratmışdır. Nəticədə isə, dini-mənəvi hadisə ənənəvi hal almış, nəsildən-nəslə keçmişdir. Şamançılıq dağıldıqdan sonra da onun dini-mənəvi elementləri sonrakı dinlər tərəfindən obrazlı təsir vasitəsi kimi qəbul edilmişdir.

Ümumiyyətlə, bədii emosionallığın təsir dairəsindən istifadə etmək bütün dinlərə xas olan ənənəvi haldır. İslamda «Quran»ın avazla oxunması, xristianlıqda xordan və musiqidən istifadə olunması, memarlıq sənətinin ecazkarlığından, əzəmətindən bəhrələnmək bədii-emosional təsir dairəsinin adət və ənənələrdə, mərasimlərdə mövcudluğu kimi anlaşılmalıdır. Bu vasitə ilə insanların qəlbində məhz "Allah obrazını", idealını yaradıb, onları fövqəltəbii qüvvələrə qulluq etdirmək, ən başlıca cəhətlərdən biri hesab olunmuşdur.

Atəşpərəstliyin müqəddəs kitabı "Avesta"da göstərilən dini ayin və mərasimlərdə bədii-estetik duyum, sə-

nət sahələrinin mənşəyi ilə bağlı maraqlı məlumatlar vardır. «Avesta»da da təsvir olunan dini ayin və mərasimlərin məzmununa, əsasən vokal, rəqs və s. sənət sahələrinin mənəvi və praktiki əhəmiyyətinə xüsusi diqqət yetirilmişdir.

"Estetika aləmində" kitabında Aslan Aslanov haqlı olaraq demişdir ki, "İncəsənətlə dinin qarşılıqlı münasibəti mürəkkəb və ziddiyyətlidir. İctimai inkişafın konkret dövrlərindən, iqtisadi, siyasi, mədəni şəraitin səciyyəsindən asılı olaraq bu münasibət müxtəlif şəkillərdə təzahür etmişdir. Məlumdur ki, bədii və dini təfəkkür proseslərinin ən ümumi və oxşar cəhətlərindən biri onların hər ikisinin konkret, hissi, əyani obrazlara əsaslanmasıdır".

Azərbaycan filosofu, professor Ağayar Şükürov Zərdüştün tarixi xidmətini qeyd edərək yazmışdır: "Zərdüştün böyüklüyü ondan ibarətdir ki, özünə qədər mövcud olan allahların hamısını rədd edərək yeganə allah Hörmüzü kainatın və bütün canlı varlıqların, ruhların, insanların yaradıcısı kimi irəli sürmüşdür. Hörmüz isə özlüyündə xeyir və şər, həqiqət və yalan arasındakı yolu sərbəst seçmək imkanı yaradır".

Adət və ənənələrin əsrlər boyu yaşama səbəblərini qismən də olsa, aydınlaşdırmaq cəhdində bulunan Telman Haqverdiyev yazmışdır: "Adət və ənənələr insanların kədər anının təsəllisi, sevincinin isə carçısı olmuş, xalqın mənəvi təbliğat tribunasına çevrilmişdir. Bu tribuna əksər hallarda hamını özünə tabe edir, hətta mərasim anlarının bəzi məqamlarının mahiyyətini başa düşməyənlər də ətrafdakıların hərəkətlərini kor-koranə də olsa, təkrar edirlər. Məsələn, dəfn mərasimlərində "Quran"dan parçalar oxunduqca molla "fatihə" deyərək əlini üzünə çəkib salavat çevirir. Salavatın mahiyyətini başa düşməyən bir çoxları da istər-istəməz onun hərəkətlərini təkrar edirlər".

"Tarixi təcrübə sübut edir ki, yalnız xalqın mənəvi tələbatından doğan, onun ruhuna, təbiətinə, zövqünə qida verən adətlər və ənənələr məişətə daxil olub vətəndaşlıq hüququ qazana bilirlər.

Qeyd etmək lazımdır ki, adət və ənənələrin bədii-estetik idealından bəhrələnmək dərəcəsi də müxtəlif insan qruplarında çox fərqlidir. Digər tərəfdən milli xarakterin müxtəlifliyi də bədii-emosional bəhrələnmənin dərəcəsində nəzərə çarpacaq fərqlər əmələ gətirir. Elə millətlər var ki, öz milli bayramlarında daha fəal olur, kütləvi şənliklərin daha real iştirakçılarına çevrilirlər. Bununla əlaqədar olaraq F.Engelsin yazdığı kimi "İngilis milli xarakteri həm alman, həm də fransız milli xarakterindən əsaslı surətdə fərqlənir".

Məhz milli xarakterlərin fərqli olması adət və ənənələrin icrası prosesində də özünü büruzə verir. Xüsusilə, milli xalq bayramlarındakı iştirakına görə azərbaycanlı ilə alman, yaxud özbəklə latış arasında çox böyük fərqlər vardır. Alman və latışda kütləvi bayramın real iştirakçısına çevrilmək təşəbbüsü daha qabarıq şəkildə özünü büruzə verir. Azərbaycanlı ilə özbək isə qismən passiv və fəaliyyətsizdirlər. Görünür, milli xarakterə dini mənsubiyyət də təsir göstərir və insanların adət və ənənəyə münasibətlərində nəzərə çarpacaq dərəcədə fərqlər yaradır. İslam dininin əyləncəyə və musiqiyə münasibəti də tarixən xristian etiqadlı xalqlarla islam etiqadlı xalqlar arasında adət-ənənə fərqləri yaratmışdır. Əsasən islamın cəmiyyət daxilində qadın fəaliyyətinə qoyduğu bir çox qadağalar onların kütləvi bayram və mərasimlərdəki iştiraklarını məhdudlaşdırmışdır. Qadınların kişilərlə bərabər kütləvi el bayramlarında iştiraklarında kifayət qədər məhdudiyyət yaratmışdır. Bu da nəticə etibarı ilə müsəlman etiqadına inanan qadınlar arasında qismən də olsa, məişət qapalılığı əmələ gətirmişdir. Onların adət və ənənələrin estetik dəyərlərindən istifadə etmək imkanlarını məhdudlaşdırmışdır.

***İlqar HÜSEYNOV,***
***ADMİU-nun Tətbiqi Kulturologiya kafedrasının müdiri***